bölmə 9

# Səsin yaranması və yayılması



Səs canlıların ünsiyyət vasitələrindən biridir. Bir çox canlı yırtıcı gördükdə xüsusi səslər çıxararaq sürüdəkiləri xəbərdar edir. İnsanları digər canlılardan fərqləndirən əsas xüsusiyyətlərdən biri nitqdir. İnsanlar səsdən istifadə edərək müəyyən fikirləri ifadə edən cümlələr qururlar. Yazmaq üçün istifadə olunan hərflər də əslində səslərin simvollarıdır. Səsin incəsənət, texnologiya və tibb sahəsində də mühüm tətbiqləri var.

Qobustandakı maraqlı abidələr arasında qavaldaşlar da var.  Bu böyük qaya parçaları Daş dövründə yaşamış insanların istifadə etdikləri musiqi alətidir. Qavaldaşlar yerdən müəyyən hündürlükdə, yastı daşlar üzərində elə yerləşdirilib ki, torpaqla arasında boşluq olsun. Bu boşluq olmasa, qavaldaşlardan musiqi aləti kimi istifadə etmək mümkün olmaz. Səthinə daşla vurduqda qaval və nağara kimi zərb alətlərinin səsinə oxşar səs çıxaran qavaldaşlar musiqinin insanın ən qədim məşğuliyyətlərindən biri olduğunu göstərir. Çünki Qobustan ərazisində insanların məskunlaşması tarixi Üst Paleolit dövrünün sonu ilə Mezolit dövrünün başlanğıcına təsadüf edir.

- **Sizcə, səslər necə yaranır?**
- **Səslər bir-birindən nə ilə fərqlənir?**
- **Niyə bəzi səslər xoşumuza gəlir, bəziləri isə gəlmir?**

## Bölmədə öyrənəcəksiniz

- Səs, səs mənbəyinin və mühitdəki zərrəciklərin təkrarlanan hərəkəti nəticəsində yaranır
- Eşitdiyimiz səsləri gur və ya alçaq, zil və ya bəm olaraq fərqləndirə bilərik
- Səs havadan başqa, su və polad kimi mühitlərdə də yayılır
- Əks-səda səsin əks olunması nəticəsində yaranır